

**Vəliyev Nurlan Habil oğlu**

Nurlan Habil oğlu Vəliyev 1994-cü il aprelin 4-də Tovuz rayonunun Qovlar şəhərində anadan olub. Qovlar şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyanın məzunu olub. 2012-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə gedib. Daha sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edirdi.

Azərbaycan Ordusunun əsgəri olan Nurlan Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Nurlan Vəliyev sentyabrın 29-da Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 26.12.2020-ci ildə Qovlar şəhərində dəfn olunub.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər Vəliyev Nurlan Habil oğlu "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.